Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi



# ƏLCƏK

BAKI • UŞAQGƏNCNƏŞR • 1955

UKRAYNA
XALQ
NAĞILI

# ƏLCƏK



BAKI • UŞAQGƏNCNƏŞR • 1955



Bir kəndli baba meşə ilə gedirdi; iti də yanınca qaçırdı. Birdən kəndli babanın əlcəyinin bir tayı düşüb meşədə qaldı.



Budur, bir siçan qaça-qaça gəlib, əlcəyin içinə girdi, öz-özünə dedi:
– Bura nə yaxşıdır, mən buradaca qalacağam.
Bu vaxt bir qurbağa hoppana-hoppana gəlib, əlcəyi gördü, soruşdu:



– Bu əlcəyin içində kim olur?
– Mən. Tez qaçan-siçan. Bəs sən kimsən?
– Mən də qur-qur-qurbağa, qoy mən də içəri gəlim!
– Yaxşı, gəl.



İndi onlar iki oldular. Birdən qaça-qaça bir dovşan da gəldi. Əlcəyə çatıb soruşdu:

– Bu əlcəyin içində kim olur?



– Tez qaçan siçan, qur-qur-qurbaga. Bəs sən kimsən?
– Mən də quyruğu gödək-dovşan bəy. Qoyun mən də gəlim.
– Yaxşı, gəl.



İndi onlar üç oldular. Bu vaxt qaça-qaça bir tülkü də gəldi:
– Bu əlcəyin içində kim olur?



–Tez qaçan-siçan, qur-qur-qurbaga, bır də quyruğu gödək-dovşan bəy. Bəs sən kimsən?

– Mən də tükləri ala-tülkü xala. Qoyun mən də gəlim!



İndi onlar dörd oldular. Bir də gördülər ki, qaça-qaça bir qurd gəlir. O da əlcəyə çatıb, soruşdu:

– Bu əlcəyin  içində kim olur?

– Tez qaçan-siçan, qur-qur-qurbağa, quyruğu gödək-dovşan bəy, bir də tükləri ala-tülkü xala. Bəs sən kimsən?



– Mən də gözləri yanar-boz canavar. Qoyun mən də gəlim də!

– Di yaxşı, gəl.

Qurd da gəldi; indi onlar beş oldular. Bu vaxt hardansa bir qaban da gəlib çıxdı; xoruldaya-xoruldaya soruşdu:



– Bu əlcəyin içində kim olur?

– Tez qaçan-siçan, qur-qur-qurbağa, quyruğu gödək-dovşan bəy, tükləri ala-tülkü xala, bir də gözləri yanar-boz canavar. Bəs sən kimsən?

– Mən də xor-xor yatan-qıllı qaban. Qoyun mən də gəlim! Bir işə bax ha. Elə hamı əlcəyin içinə gəlmək istəyir.



– Axı, sən bura yerləşməzsən!
– Bir təhər girərəm, qoyun gəlim!
– Di yaxşı, daha nə olsun, gəl də!
Qaban da içəri girdi. İndi onlar daha altı oldular. Yerləri elə darısqal idi ki, heç



tərpəşə bilmirdilər. Bu vaxt birdən quru budaqlar şıqqıldadı, onların arasından bir ayı çıxıb, o da əlcəyə yaxınlaşdı; nərildəyə-nərildəyə soruşdu:

– Bu əlcəyin içində kim olur?

– Tez qaçan-siçan, qur-qur-qurbağa, quyruğu gödək-dovşan bəy, tükləri ala-tülkü xala, gözləri yanar-boz canavar, bir də xor-xor yatan-qıllı qaban. Bəs sən kimsən?

– O-ho-ho, siz nə yaman çoxsunuz! Mənim də adım ayı-ballı dayı. Qoyun mən də gəlim!



– Axı səni hara buraxaq? Onsuz da yerimiz dardır.

– Bir təhər yerləşərəm də!

– Di yaxşı, sən də gəl, ancaq bir qıraqdaca otur!

Ayı da içəri girdi. İndi yeddi oldular. Yerləri elə dar idi ki, azca qalmışdı əlcək tayı sökülüb-tökülsün.

Bu vaxt birdən kəndli baba xəbər tutdu ki, əlcəyinin bir tayı düşübdür. O, geri qayıdıb, əlcək tayını axtarmağa başladı. İti də qabağa düşüb qaçırdı. İt qaça-qaça gəlib gördü ki, əlcək tayı yerə düşüb qalıb, amma tərpəşir. İt bunu görən kimi başladı hürməyə:

– Ham-ham-ham!

Əlcəyin içində olanların hamısı qorxuya düşdü, çıxıb meşənin içinə, hərə bir yana qaçdı. Baba da gəlib, öz əlcəyinin götürdü.



FİRİDUN BƏY KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI
50

Çapa imzalanmışdır: 10.03.2016.
Ofset çap kağızı.
Formatı: 60x84 1/8.
Həcmi: 2 ç.v.
Sifariş 6.
Tiraj: 500.

Kitab "Nağıl Evi-N" mətbəəsində
ofset üsulu ilə çap olunmuşdur.

*Təkrar çap zamanı ilk nəşrin*
*kitab göstəriciləri olduğu kimi saxlanılmışdır*

Bərpanəşr

**Bakı-2016**